Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Yeşaya Gələcəyi Görür



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Jonathan Hay

Uyğunlaşdıran: Mary-Anne S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Yeşaya peyğəmbər idi.  Onun işi insanlara Allahın dediklərini çatdırmaq idi.



İnsanlar hər dəfə Allahın Sözünü eşitmək istəmirdilər, ancaq Yeşaya Allahı heç vaxt məyus etmirdi.  Yeşaya dörd müxtəlif padşahın dövründə vaizlik etdi.



Padşah Uzziya Yerusəlim şəhərindən Yəhuda torpağına hökmranlıq edirdi.  Əvvəlcə Allah Uzziyaya xeyir-dua verdi, çünki o, Allahın gözündə doğru olanı edirdi. Amma Uzziya qürurlandı və daha Allaha itaət etmədi. O, cüzam tutdu və ölənə qədər tək yaşamalı oldu.



Padşah Uzziya 60 il hömkranlıq etdi. O öləndə, oğlu Yotam onun yerinə keçdi və on yeddi il hökmranlıq etdi. Allah Yotama xeyir-dua verdi, çünki o, Allahın Yeşaya və digər peyğəmbərlər vasitəsilə dediklərinə qulaq asırdı.



Axaz padşah Yotamın oğlu idi. Axazın iyirmi yaşı olanda hökmranlıq etməyə başladı və on altı il Yerusəlimdə hökmranlıq etdi.  Axaz Allahla maraqlanmırdı.



O, bütlərə və yalançı allahlara ibadət edirdi və Allahın xalqının çox hissəsini də eyni şeyi etməyə yönəldirdi. Yeşayanın ona xəbərdarlıq etməsinə baxmayaraq, Axaz Allahın xəbərdarlıqlarına qulaq asmırdı.
O, 35 yaşında öldü.





Allah növbəti padşaha, Xizqiyaya xeyir-dua verdi, çünki o, bütün bütləri və yalançı allahları ləğv etdi və həqiqi Allaha dua etdi. Düşmən Yəhudaya hücum edəndə Xizqiya bildi ki, onun ordusu qələbə çalmaq üçün çox zəifdir.  O, Yeşayadan Allahın kömək etməsi üçün dua etməsini xahiş etdi.

Yeşaya bu xəbəri padşaha göndərdi: “Bu düşmənlərdən qorxma… Onları qayıtmağa məcbur edəcəyəm…” Az keçmədi ki, Allah düşmənin ordusunun, hətta Xizqiya ilə vuruşmadan getməsinə səbəb oldu.





Ətrafındakı adamların Allah haqqında çox fikirləşmədiklərinə baxmayaraq, Yeşaya Allah haqqında çox fikirləşirdi.

Bir gün o, bir görüntü gördü. Elə bir görüntü ki, oyaq olarkən yuxu, xəyal görən kimi.



Görüntüdə Yeşaya Rəbbin nə qədər izzətli və müqəddəs olduğunu gördü.

Allah görüntüdə soruşdu: “Kimi göndərim?” Yeşaya dedi: “Mən buradayam. Məni göndər”. Yeşaya Allahın hər istədiyini etməyə və hara göndərsə, ora getməyə hazır idi.





Bəlkə Yeşaya fikirləşirdi ki, Allah onu insanların heç vaxt Allah haqqında eşitmədikləri uzaq yerlərə göndərəcək.  Amma yox, Allah bunu etmədi.



Allah Yeşayaya öz ölkəsində öz xalqına danışmasını dedi.  O, onlara deməli idi ki, günahlarına görə Allah onlara qəzəblidir.



Yeşayanın deyəcəyi başqa şeylər də var idi - güclü qurtarıcı olan və onları günahlarından və bütün düşmənlərindən xilas etməyə gələn Şəxs haqqında gözəl şeylər.



Yəhudi xalqı bu adamı “Məsih” adlandırırdı.
Allahın Məsihi göndərəcəyini gözlədiklərinə baxmayaraq, adamların bir çoxu sanki Onun heç bir vaxt gəlməyəcəyi kimi yaşayırdı.





Yeşayanın Məsih haqqında dediyi bütün şeylər onun kitabında yazılmışdır.



Bu şeylər baş verməmişdən yüzlərlə il əvvəl yazılmasına baxmayaraq, Yeşayanın Məsih haqqında dediklərinin hamısı həyata keçəcəkdi.

Yeşaya dedi ki,
Allahın Özü əlamət
verəcək.  O dedi:



“Budur, bakirə qız hamilə
olub oğlan doğacaq, adını
İmmanuel qoyacaq”.
Camaat Yeşayanın
Allahın Məsihi
haqqında



danışdığını bilirdi,
çünki qadın bakirə ola
və uşaq doğa bilməzdi.
Həm də, İmmanuel “Allah
bizimlədir” deməkdir!



"Çünki bizim üçün körpə doğuldu, bizə oğul verildi, hakimiyyət onun çiyinləri üzərində olacaq, onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq".  Yeşaya Allahın vədlərinin həyata keçəcəyindən o qədər əmin idi ki, o, bu vədlər haqqında sanki artıq baş vermiş kimi danışırdı. Buna peyğəmbərlik deyilir.



Yeşaya dedi ki, Məsih böyük olacaq və böyük işlər görəcək. Allah həmçinin Yeşayaya xalqa Məsihin əzab çəkəcəyini və ölümə məhkum ediləcəyini deməsini də dedi. Yeşaya yəqin ki, Məsihin necə böyük, qüdrətli və həmçinin zəif və yaralana biləcəyi haqqında fikirləşirdi.

Amma Yeşaya Allahla mübahisə etmədi, o, sadəcə olaraq, Allahın ona dediklərini təkrarladı.

Allah bu peyğəmbərliyin gerçəkləşməsinin qayğısına qalacaqdı.



Məsih, təkcə Yəhudi xalqı üçün gəlmirdi.  Allah Yeşayaya dedi ki, Məsih “Qeyri-yəhudilərin işığı” olacaq. Qeyri-yəhudilər bütün dünyada yəhudi olmayan adamlardır. Allah hamını sevir və Onun Məsihi hamıya xeyir-dua vermək və dünyanın axırlarına qədər xilas gətirmək üçün gələcək.



Yeşaya Gələcəyi Görür

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yeşaya 1, 6, 7, 9, 53

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**